# "Xocalı" tamaşası gənc aktyorların təqdimatında







Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcmasının akt zalında Xocalı faciəsinin 24-cü ildönümü ilə əlaqədar anım tədbiri keçirildi. Bakı Uşaq Teatrının nəzdində fəaliyyət göstərən "Günay" teatr studiyasının hazırladığı tamaşa nümayiş etdirildi.

Tamaşadan öncə Şuşa Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsalə Fətəliyeva tədbiri açıq elan etdi. O bildirdi ki, Xocalı faciəsi nəinki Azərbaycan tarixində, hətta dünya tarixində ən qanlı hadisələrdən biri olaraq erməni silahlı dəstələri tərəfindən xalqımıza qarşı törədilmiş cinayətdir. V.Fətəliyeva qeyd etdi ki, nümayiş olunacaq tamaşa AZƏRTAC-ın müxbiri, şair-publisist Zərəngiz Dəmirçi Qaralının "Cavab ver" poeması əsasında səhnələşdirilmişdir. Tamaşa Bakı Uşaq Teatrının nəzdində fəaliyyət göstərən "Günay" teatr studiyasında Larisa Tarusovanın rəhbərliyi ilə hazırlanmışdır.

Gitarada "Cənab leytenant" adlı kompozisiya səsləndi. Bundan sonra "Xocalı" adlı tamaşa başladı. Tamaşada gündəlik qayğıları ilə məşğul olan, təbiətin bu dilbər guşəsində qurub yaradan, sevincli günlər yaşayan dinc ailələrin bir anda güllələrin yağışına tuş gəlməsi, günahsız olaraq qətlə yetirildikləri nümayiş etdirildi.

Tamaşanın nümayişindən sonra teatr studiyasının rəhbəri Larisa Tarusova çıxış edərək teatr haqqında ətraflı məlumat verdi. Qeyd etdi ki, tamaşanın əsas məqamından biri də aktyorların rus dilində təhsil alan azərbaycanlılarla yanaşı, ruslar və digər millətlərin nümayəndəsi olan şagirdlər tərəfindən hazırlanmasıdır. Larisa Tarusova çıxışında bildirdi ki, əgər mən və mənim əcdadlarım Azərbaycanda yaşayıb, Azərbaycanın çörəyini yemişiksə və qarşılıqlı hörmət şəraitində yaşayırıqsa, ümumi Vətəni - Azərbaycanı biz də müdafiə etməyə borcluyuq, həqiqəti bütün dünyaya çatdırmalıyıq.

"Cavab ver" poemasının müəllifi Zərəngiz Dəmirçi Qayalı poemanın yaranması səbəblərindən ətraflı məlumat verdi. O bildirdi ki, Xocalı döyüşən tərəf deyil. Dinc əhalidir. Ona görə də poemada dinc əhalinin heç bir siyasətə söykənməyən, yalnız ülvi hisslərlə tamamlanan həyat ahənginə, uşaqların və körpələrin gülüşlərinə, gənclərin sevgisinə, yaşlıların asudə həyatına edilən qəsd, dinc əhaliyə qəflətən atılmış güllələrdən, dünyada Xatın, Xirosima, Naqasaki və digər dəhşətlərdən də ağrılı soyqırımdan bəhs edir. Məqsəd günahsız insanların faciəsini diqqətə çatdırmaq, faşizmdən də təhlükəli olan erməni xislətinin iç üzünü açıb göstərməkdir.

Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcmasının rəhbəri Bayram Səfərov çıxış edərək bildirdi ki, Xocalı soyqırımı yalnız azərbaycanlılara qarşı törədilmiş vəhşilik, zorakılıq, soyqırım aktı deyil, bütün insanlığa qarşı yönəlmiş, qəddarlığın ən yüksək həddinin nümayişidir. B.Səfərov tamaşanın yaradıcı heyətinə təşəkkürünü bildirdi, balaca aktyorların professional səviyyədə nümayiş etdirdiyi "Xocalı" tamaşasını insanların şüuruna təsir edə biləcək yüksək səviyyəli sənət əsəri adlandırdı.

Tədbirdə çıxış edən Xocalı Rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov kollektivin əməyinə böyük qiymət verərək müəllifə və aktyorlara minnətdarlığını bildirdi.

Azərbaycan Respublikası Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin sektor müdiri, YAP Siyasi Şurasının üzvü, siyasi elmlər üzrə fəlsəfə doktoru Qafar Əliyev xalqımızın əsrlər boyu bütün xalqların, dinlərin nümayəndələrinə hörmətlə yanaşdığını qeyd etdi. Q.Əliyev dedi: "Azərbaycanda tarix boyu multikulturalizmə böyük hörmət olub. Hazırda dünyada milli məsələlərin qızışdığı bir dövrdə ölkə başçısı cənab İlham Əliyev tərəfindən 2016-cı il "Multikulturalizm ili" elan edilib. Bu gün Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və Fondun dəstəyi ilə Roma imperiyası dövrünə aid olan Zevsin heykəlinin bərpası da xalqımızın multikulturalizm ənənələrinə sadiq olduğunu göstərir".

Qafar Əliyev qeyd etdi ki, nümayiş etdirilən tamaşanın digər əsas məqamlarından biri də teatr studiyasının rəhbərinin Bakıda yaşayan rus millətinin nümayəndəsi Larisa Tarusovanın olması və tamaşanın rus sektorunda təhsil alan azərbaycanlılarla yanaşı rus, yəhudi, tatar, ləzgi millətindən olan şagirdlər tərəfindən hazırlanmasıdır. Bu azərbaycanlıların xoş günündə yanında olan qardaş xalqların nümayəndələrinin dar gündə də haqq səsini birgə ucaltmağının, Azərbaycanda multikulturalizmin bir nümunəsidir. Q.Əliyev çıxışında ədalətin dünya xalqlarına çatdırılmasında belə bir beynəlmiləl teatr studiyasının əhəmiyyətindən danışdı. Gələcəkdə bu studiyanın təqdim etdiyi "Xocalı" tamaşasının rus dilində hazırlanaraq MDB məkanında nümayiş etdirilməsinin vacib olduğunu bildirdi... O, həmçinin yaxın gələcəkdə Ermənistanı da alman faşizminin taleyi gözlədiyini qeyd etdi. Natiq respublika Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində işğal altında olan torpaqlarımızın azad ediləcəyini və ədalətin bərpa olunacağını vurğuladı.

**Samir ZEYNALOV,**
**"Respublika".**